## Sovet hakimiyyəti dövrü

1920-ci il 28 aprel işğalı nəticəsində Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə Qarabağın, o cümlədən Şuşanın fəlakətli günləri başlandı. Sovet rəhbərliyinin himayəçiliyi ilə Dağlıq Qarabağda məsul vəzifələri ələ keçirmiş ermənilər bu dəfə öz məkrli siyasətlərini "sinfi mübarizə" pərdəsi altında bölgənin azərbaycanlı əhalisinə qarşı repressiyalalar həyata keçirməklə, soyqırımı və deportasiya siyasəti yeridirdilər. 1920-1922-ci illərdə Şuşanın yüzlərlə azərbaycanlı sakini ermənilərin fitvası ilə həbs edilmiş, güllələnmiş və təqiblərə məruz qalmışdı. Şəhərin bir çox adlı-sanlı adamları, o cümlədən ziyalıları əhalinin gözü qarşısında güllələnmişdi. Azərbaycanlı ailələrin xeyli hissəsi erməni təqiblərindən xilas olmaq üçün doğma Şuşanı tərk edərək İrana və Türkiyəyə qaçmağa məcbur olmuşdu. Həyata keçirilən bu soyqırımları, repressiyalar, deportasiyalar şəhərdə tədricən azərbaycanlıların sayının daha da azalmasına səbəb olmuşdu.

Sovet-bolşevik rejiminin hakimiyyəti dövründə Şuşa şəhərinin inzibati statusu bir neçə dəfə



*Şəhərdən görünüş*

dəyişdirilmişdi. PK(b)P MK Qafqaz bürosu plenumunun 1921-ci il 5 iyul tarixli qərarı ilə Şuşa yeni yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) mərkəzi kimi müəyyən olunmuşdu. Lakin 1923-cü il iyulun 7-də keçirilən plenumda Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Şuşa yox, Xankəndi seçilmişdi. Erməni separatçıları və Kremldəki ermənipərəst qüvvələr Azərbaycana qarşı hazırladıqları məkrli planları Şuşadan həyata keçirməyin asan olmayacağını başa düşərək bu addımı atmışdılar. Bunun ardınca isə Moskvanın göstərişi ilə Şuşa şəhəri AK(b)P MK Rəyasət heyətinin 1923-cü il 16 iyul tarixli qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil edilmişdi. Şəhər eyniadlı rayonun və 12 kənddən ibarət Malıbəyli volostunun mərkəzinə çevrilmişdi. Bununla da Şuşa

170 ilə yaxın yerinə yetirdiyi ənənəvi tarixi statusundan - bütün Qarabağın inzibati mərkəzi statusundan məhrum edilmişdi.

İnzibati mərkəz statusundan məhrum edilməsi Şuşanın sonrakı taleyinə ağır təsir göstərmişdi. Respublika rəhbərliyinin laqeyd münasibəti və vilayətin erməni rəhbərliyinin separatçılıq fəaliyyəti nəticəsində şəhər sürətlə tənəzzül etməyə başlamışdı. Uzun müddət burada heç bir tikinti-abadlıq işləri görülməmişdi. Əksinə, Azərbaycan xalqının tarixi-memarlıq abidələrinin bir çoxu vəhşicəsinə uçurdulub dağıdılırdı. İbrahimxəlil xanın "Xəzinə qayası"nda inşa etdirdiyi nadir memarlıq kompleksi hissə-hissə sökdürüldü. Şuşanın Azərbaycan memarlığının inciləri olan tarixi-memarlıq abidələrinin dağıdılması sonrakı illərdə də davam etdirilmişdi.



*Şuşanın panoraması*

İkinci Dünya müharibəsinin sonunda Ermənistan rəhbərliyi yaranmış fürsətdən istifadə edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini yenidən qaldırmışdı. Ermənistan Mərkəzi Komitəsinin birinci katibi Qriqori Arutinov bununla bağlı məktubla Moskvaya müraciət etmişdi. 1945-ci il noyabrın 28-də Sov.İKP MK-nın katibi Georgi Malenkov ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbini Mir Cəfər Bağırova göndərmişdi. 1945-ci il dekabrın 10-da M. C. Bağırov cavab vermişdi ki, o, Arutinovun tələbi ilə o şərtlə razıdır ki, Şuşa istisna olmaqla, Ermənistanın Azərbaycanla həmsərhəd və azərbaycanlıların yaşadıqları Əzizbəyov, Vedi, Qarabağlar rayonları Azərbaycana birləşdirilsin. Üstəlik, əsasən azərbaycanlıların yaşadıqları Gürcüstanın Borçalı rayonu və Dağıstan Muxtar Respublikasının Dərbənd və Qasımkənd rayonları da Azərbaycana qaytarılsın. Bundan sonra həmin məsələ qapadılmışdı.

DQMV-nin erməni rəhbərliyi hər vəchlə Şuşanın simasını dəyişdirməyə çalışırdı. 1965-ci ildə keçmiş Lenin küçəsində dördmərtəbəli yaşayış binası tikilərkən bir neçə şəxsi imarətlə yanaşı, nadir tarixi-memarlıq abidəsi olan bir karvansara və hamam uçurdulmuş, 11 su quyusu - kəhriz sıradan çıxarılmışdı. Ümumiyyətlə, Şuşadakı Azərbaycan memarlığının nadir incilərindən olan və XVIII-XIX əsrlərdə inşa edilmiş 20-yə qədər məşhur şərq hamamının əksəriyyəti Sovet hakimiyyəti illərində DQMV-nin erməni rəhbərliyi tərəfindən dağıdılıb yox edilmişdi.

1963-cü il yanvarın 4-də Şuşa rayonu ləğv edilərək Stepanakert rayonunun tərkibinə qatılmışdı. Yalnız 1965-ci il yanvarın 6-da Şuşanın rayon statusunu yenidən bərpa etmək mümkün olmuşdu.

Qeyd etmək lazımdır ki, Azərbaycanın məşhur mədəniyyət mərkəzlərindən biri olan Şuşanın dağıdılmasının qarşısını almaq və şəhərin yenidən dirçəldilməsi yalnız 1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsindən sonra mümkün oldu. Respublikanın yeni rəhbəri, ilk növbədə, Şuşanın tarixi-memarlıq abidələrinin dağıdılmasının qarşısını almaq üçün qəti tədbirlər gördü. Gözəl memarlıq abidələri ilə zəngin olan Şuşa şəhərinin kompleks inkişafı üçün Azərbaycan hökuməti bir neçə xüsusi qərar qəbul etmişdir. Bunlardan biri, "Şuşa şəhərində kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında" Azərbaycan KP MK-nın və Respublika Nazirlər Sovetinin 4 noyabr 1976-cı il qərarı idi. Həmin qərara uyğun olaraq, Azərdövlətlayihə İnstitutu tərəfindən şəhərin "Baş planı" hazırlandı. Layihədə Şuşa şəhərində 2000-ci ilədək olan dövrdə görüləcək işlər öz əksini tapmışdı. "Baş plan"da hər biri 45 mənzilli iki doqquz mərtəbəli yaşayış evi, 300 yerlik turist bazası, məişət evi, 400 yerlik uşaq sanatoriyası, Şuşanın cənub-qərbində "Azərqaznəqliyyat" İstehsalat Birliyinin işçiləri üçün 40 mənzilli yaşayış binası, Cıdır düzü-Topxana, Şuşa-Xankəndi kanat yollarının çəkilməsi və digər tikinti abadlıq işlərinin aparılması nəzərdə tutulmuşdu. Lakin təəssüf hissi ilə bir məsələni xüsusi qeyd etməliyik ki, DQMV-nin erməni rəhbərliyi öz səlahiyyətlərindən istifadə edərək türkçülüyü, müsəlmançılığı öz üzərində əks etdirən Xurşudbanu Natəvanın, Gövhər ağanın, Cəfərqulu xanın, Uğurlu bəyin, Fərzəli bəyin, Nəcəfqulu ağanın, Hacı Qulunun, Səfi bəyin tikdirdikləri saray və imarətlər, məscid və hamamlar, Camxarov, Mirsiyabov, Fayazovların tikdirdikləri ticarət-sənaye mərkəzlərini "Şuşa şəhərinin Kurort kompleksini inkişaf etdirmək" adı altında dağıtmaq istəyirdi. Bundan xəbər tutan Heydər Əliyev dərhal məsələyə müdaxilə etmiş, 10 avqust 1977-ci ildə Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin 280 N°-li qərarı ilə Şuşa şəhəri "Tarixi Arxitektura Qoruğu" elan edilmişdi. Bundan sonra Şuşa şəhərinin qoruq zonasına daxil edilən 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 18 məhəllə bulağı, 15 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2



*"Qarabağ" mehmanxanası*

qəsr, kilsə, qala divarları və bürcləri, sovet dövründə tikilmiş 21 tarixi abidə dövlət tərəfindən qorunmağa və bərpa edilməyə başlanıldı.

Şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün mühüm tədbirlər həyata keçirildi. Bütün Azərbaycanda tar, kamança, ud, nağara və s. musiqi alətləri istehsal edən yeganə Şərq Milli Musiqi Alətləri Fabriki məhz Şuşada istifadəyə verildi. Bu fabrikin məhsulları Gürcüstan, Qazaxıstan, Dağıstan, Orta Asiya və başqa sovet respublikalarına, habelə Hindistan və Yaxın Şərq ölkələrinə ixrac olunurdu. On beş il ərzində müstəqil sənaye müəssisəsi kimi fəaliyyət göstərən bu fabrikin məhsulları dəfələrlə ümumittifaq və beynəlxalq sərgilərdə yüksək mükafatlara layiq görüldü.

1976-1982-ci illərdə Şuşada tikinti-abadlıq işlərinə 20 milyon manat vəsait ayrılmışdır ki, bu




*Heydər Əliyev Şuşada. 1982*

da 1971-1975-ci illərlə müqayisədə 2 dəfə, 1965-1969-cu illərlə müqayisədə isə 10 dəfə artıq idi. Heydər Əliyevin Şuşaya olan böyük sevgisinin, vurğunluğunun nəticəsi idi ki, o, 1982-ci ildə Şuşa şəhərində iki dəfə olmuşdur. 1982-ci il yanvarın 14-də Şuşa şəhərinə gələn Heydər Əliyev, ilk növbədə Molla Pənah Vaqifin yerli mərmərdən tikilmiş 20 metr hündürlüyündə olan əzəmətli məqbərəsinin açılışında iştirak etmişdi. Bu zaman respublikamızın 400-dən çox ədəbiyyat, incəsənət və elm xadimi də həmin abidənin açılışında iştirak etmişdilər. Həmin vaxt Heydər Əliyev Şuşanın Baş planında nəzərdə tutulmuş və bərpa edilmiş tarix və mədəniyyət abidələrinə baxış keçirmişdi.

Heydər Əliyev həmin ildə ikinci dəfə 1982-ci il iyulun 28-də ailə üzvləri ilə birlikdə Şuşa şəhərinə gəlmiş, bir sıra mədəniyyət abidələrinin və obyektlərin açılışında iştirak etmişdi. Heydər Əliyev M. P. Vaqifin poeziya bayramında iştirak etmiş, şairin dərs dediyi mədrəsəni, şəkil qalereyasını, Ü. Hacıbəyovun ev muzeyini, məscidləri, X. B. Natəvanın büstünü ziyarət etmişdi. Şuşa rayonunun rəhbərləri ilə keçirdiyi görüşdə ümummilli lider demişdi: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır".



*Rabitə evi*

Həmin illərdə Şuşada Tarix-Ölkəşünaslıq Muzeyi, Yaşıl Aptek Muzeyi, "Gəncə qapısı"nın mühafizə zonasında Aşıq Muzey, Xalça Muzeyi, Rəsm Qalereyası, Üzeyir Hacıbəyovun, Bülbülün ev muzeyləri istifadəyə verilmiş, Poeziya Evi yaradılmışdı. Şəhərdə qış kinoteatrı, 9 mərtəbəli mehmanxana, Şuşa sanatoriyasının 7-ci korpusu, Rabitə evi tikilmiş, mədəniyyət və istirahət parkları salınmışdı. Şuşanı su ilə təchiz etmək üçün su kəmərləri, o cümlədən mineral su kəməri çəkilmiş, ikimərtəbəli "Turş su" mineral su qalereyası tikilmişdi.

Lakin Şuşada başlanmış bu mədəni oyanış uzun çəkmədi. Sovet İttifaqının tənəzzülü zamanı Dağlıq Qarabağda gizli fəaliyyət göstərən silahlı erməni terrorçu dəstələri yenidən fəallaşdılar. M. Qorbaçov tərəfindən müdafiə olunan və Dağlıq Qarabağın separatçılarına hər cür köməklik göstərən Ermənistanın silahlı qüvvələri Azərbaycanın sərhədlərini pozaraq Qarabağın işğalına başladılar. 1992-ci il mayın 8-də Şuşa Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olundu. İşğal prosesində və işğaldan sonrakı illər ərzində bütün Qarabağ ərazisində olduğu kimi, Şuşa şəhərindəki Azərbaycan xalqına məxsus tarixi-memarlıq abidələri erməni vandalları tərəfindən amansızcasına dağıdıldı.



*Mineral su qalereyası*